# VIII SİNİF KİMYA KURSUNDA KİMYƏVİ REAKSİYALARIN TƏSNİFATINA AİD MÖVZUNUN TƏDRİSİ PROSESİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ İMKANLARI

**M.S.Nuriyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir təlim texologiyalarının tədris prosesinə tətbiqində əsas məqsəd şagird fəaliyyətinin interaktivliyinin ön plana çəkilməsidir. Yeni təlim texnologiyaları kimya fənni üzrə hər hansı bir mövzunun xüsusi ilə də kimyəvi kinetikaya aid mövzuların tədrisi zamanı yeni təlim metodlarına, xüsusi ilə interaktiv təlim metodlarına müraciət olunmasını tələb edir. Qeyd etməliyik ki, texnologiya yunan mənşəli söz olub, sənətə sistemli yanaşma deməkdir. Yeni təlim texnologiyaları dedikdə, yalnız təhsilin elementi deyil, eyni zamanda hər hansı bir mövzunun tədrisi prosesində onun məzmunu, məqsədi, prosesi və nəticəsi kimi başa düşülür.

Ümumtəhsil məktəblərində kimyəvi kinetikaya aid mözuların tədrisi prosesində şagirdlərin bilik və bacarıqlarını müəyyən etmək məqsədi ilə Bakı şəhəri və eləcə də respublikanın bir neçə rayonlarında fənn müəllimlərinə aşağıda qeyd olunan suallarla müraciət edilmişdir.

1.Kimyəvi reaksiyalara aid mövzuların tədrisində hansı təcrübələrdən istifadə etmisiniz?

2. Kimyəvi reaksiyalara aid mövzuların tədrisi prosesində şagirdlərin biliklərinin həm nəzəri, həm də praktiki cəhətdən necə inkişaf etdiyini müəyyənləşdirmək üçün hansı əyani vasitələrdən istifadə etmisiniz?

3. Hansı nümayiş və laboratoriya təcrübələrindən istifadə etməklə şagirdləri kimyəvi reaksiyaların mühüm əlamətləri ilə tanış etmisiniz?

Müasir təlim texnologiyalarının tələblərinə əsasən kimya dərsləri xüsusi ilə də kimyəvi kinetikaya aid mövzuların tədrisi prosesində sinifdə başında fikir, əlində məşğuliyyət olmayan bir şagird belə oturmamalıdır. Kimya dərslərində hər bir şagirdin məhsuldar işlə təmin olunması, onların fəaliyyətinin inkişaf etdirilməsi və müstəqilliyinin qüvətləndirilməsi, effektivliyinin artırılmasının əsas şərtlərindəndir. Kimyəvi reaksiyaların təsnifatına aid dərslərdə şagirdlərin idrak fəaliyyətini qüvvətləndirmək o zaman təmin edilir ki, onlar bütünlükdə təlim prosesinə cəlb olunsunlar, həm bilikləri müstəqil əldə etməkdə, həm də bu bilikləri məsələ həllində, təcrübədə yəni, laborator və praktik məşğələlərdə müstəqillik göstərilməsi prosesində, ümumilikdə tacübələrin yerinə yetirilməsi prosesində qarşıya çıxan çətnliklərin aradan qaldırılması üçün öz bilik dairələri

çərçivəsində yeni biliklər emal etsinlər.

" Kimyəvi reaksiyaların təsnifatı" na aid dərs nümunəsini nəzərdən keçirək:

**Mövzu: Kimyəvi reaksiyaların təsnifatı**

**Alt standartlar**:

**2.1.1.** Kimyəvi reaksiyaları təsnif edir, qanunauyğunluqlarını izah edir.

**2.2.1.** Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

**2.2.2.** Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

**Məqsəd:**

1.Kimyəvi reaksiyaları müxtəlif əlamətlərinə görə qruplaşdırmağı bacarır və misallar göstərir;

2.Homogen və heterogen, dönən və dönməyən reaksiya tiplərini bir-birindən fərqləndirir. Onların hər birinə aid reaksiya tənliklərini tərtib edir;

3. Kimyəvi reaksiyaların ümumi təsnifat sxemini tərtib edir.

**İnteqrasiya:** B: 1.1.2.; C: 3.2.4.

**İş forması**: Bütün siniflə, qruplarla iş

**Üsullar**: Beyin həmləsi ( Əqli hücum ), problemli şərh, müzakirə, tapşırıqvermə, təqdimat

**Resurslar**: , iş vərəqləri, kompüter, proyektor ,reaktivlər ( Zn, S, Mg, $J_2$, C, HCl, $H_2SO_4$, CaO, NaOH, $CuSO_4$, $BaCl_2$ ) sınaq şüşələri, plakatlar, dərslik .

**Dərsin gedişi:**

**I Mərhələ.**

**Motivasiya, problemin qoyulması.**

İlk öncə şagirdlərin mövzuya aid əvvəlki dərslərdə əldə etdkləri biliklər aktuallaşdırılır. Müəllim sinifə keçən dərslə əlaqədar bir neçə sualla müraciət etdikdən sonra mövzuya aid bəzi görüntüləri ekranda nümayiş etdirir. Müxtəlif fərziyyələrə əsasən mövzunun adı müyyənləşdirilir və tədqiqat sualı qoyulur.

**Tədqiqat sualı:**Kimyəvi reaksiyalar hansı əlamətlərinə görə təsnif edilir və bu təsnifat həm nəzəri, həm də praktiki istiqamətdə necə izah edilir ?

**II Mərhələ.**

**Tədqiqatın aparılması.**

Şagirdlər dörd qrupa bölünür və hər qrupa tədqiqat sualının cavablarına istiqamətləndirilmiş sual və tapşırıqlar yazılmış iş vərəqləri paylanılır. Tədqiqatın aparılması zamanı şagirdlərə dərslikdən istifadə etmələrinə şərait yaradılır və aparılması vacib olan təcrübələr müəllimin nəzarəti altında yerinə yetirilir.

**I qrup.**

Sual 1. Oksigenin alınmasına aid 2-3 reaksiya tənliyi tərtib edin.

Sual 2. Kalium-permanqanatdan oksgenin alınması hansı reaksiya tipinə aiddir? Reaksiya təliyini tərtib edin.

Sual 3.$NaHCO_3 \xrightarrow{t}$ reaksiyasının tipini müəyyən edin və səbəbini izah

edin.

**II qrup.**

Sual 1. Sinkin kükürdlə və ya sinkin yodla qarşılıqlı təsirindən hansı maddələr alınır? Reaksiya tənliklərini tərtib edin.

Sual 2. İstilik effektinə görə reaksiyalar necə təsnif olunur ?

Sual 3. Oksidləşmə dərəcəsinin dəyişməsinə görə reaksiyalar neçə qrupa bölünür ?

**III qrup.**

Sual 1. Hidrogeni almaq üçün xlorid turşusu ilə sinkin, metalların suya təsirinə aid reaksiya tənliklərini tərtib edin.

Sual 2. $CaCO_3 + H_2O + CO_2 \rightarrow$ reaksiyasının tipini müəyyənləşdirin və səbəbini izah edin.

Sual 3. 3.5 q dəmirin xlorda yanmasından 25kC istilik ayrılırsa, reaksiyanın istiik effekti neçə kC olar? Ar (Fe) = 56

**IV qrup.**

Sual 1. Duz-turşu,duz-əsas və duz-duz arasında gedə bilən reaksiya tənliklərini tərtib edin.

Sual 2. Reaksiyaya daxil olan və alınan maddələrin sayına görə kimyəvi reaksiyalar necə təsnif olunur ?

Sual 3. $CuO + HCl \rightarrow$ reaksiya tənliyini başa çatdırın, əmsallaşdırın. Bütün əmsalların cəmini müəyyənləşdirin.

**III Mərhələ**

**İnformasiya mübadiləsi**

Qrup işinə ayrılan vaxt başa çatdıqdan sonra, iş vərəqləri lövhədə asılır, liderlər məlumat verir və cavablar dinlənilir.

**IV Mərhələ**

**İnformasiya müzakirəsi və təşkili**

Bu mərhələdə təqdimatlara münasibət bildirilir. Suallar müzakirə olunur, suallarda ifadə olunan anlayış və terminlərə şagirdlərin də iştirakı ilə müəllim tərəfindən aydınlıq gətirilir.

**1. Birinci qrupun lideri** məlumat verir ki, qrup iştirakçıları həm kalium-permanqanatın parçalanma təcrübəsini yerinə yetirdi həm də reaksiya tənlikləri düzgün tərtib edərək müəyyən etdilər ki, aparılan təcrübədə və qeyd edilən reaksiya tənliklərində bir maddə götürülmüş, lakin nəticədə üç maddə alınmışdır. Deməli bir mürəkkəb maddədən iki və daha artıq maddənin əmələ gəlməsi ilə gedən reaksiyalara parçalanma reaksiyaları deyilir.Qrup lideri müvafiq reaksiya təliklərini löhədə qeyd edir:

$$2KMnO_4 \xrightarrow{t} K_2MnO_4 + MnO_2 + O_2$$

**2. İkinci qrupun lideri** məlumat verir ki, qrup iştirakçıları müəllimin rəhbərliyi ilə, tələb edilən təcrübəni yerinə yetirərək müəyyən etdilər ki, sink

tozunun kükürd tozu ilə qarşılıqlı təsirindən bir mürəkkəb maddə yəni sink-sulfid əmələ gəlmişdir. İkinci təcrübəmiz isə sink tozunun yod kristalları ilə qarşılıqlı təsiri təcrübəsi idi. Bu zaman əmələ gələn sink-yodidin üzərinə 2-3 damcı distillə suyu əlavə edərək bənövşəyi rəngli yod buxarlarının əmələ gəldiyini müşahidə etdik. Qrup iştirakçıları belə nəticəyə gəldilər ki, iki və daha çox maddədən bir yeni maddənin əmələ gəlməsi ilə gedən reaksiyalara birləşmə reaksiyaları deyilir. Lider müvafiq reaksiya tənliklərini lövhədə qeyd edir:

$Zn + S \xrightarrow{t} ZnS$ $\qquad$ $Zn + J_2 \xrightarrow{t} ZnJ_2$

**3. Üçüncü qrupun lideri** məlumat verir ki, qrup iştirakçıları qarşıya qoyulan sualın cavabını müəllimin nəzarəti altında təcrübə ilə aydınlaşdırdılar. Sınaq şüşəsinə 2-3 sink parçası salıb üzərinə onun üçdə biri qədər xlorid turşusu töküldü. Qaz qabarcıqları çıxdıqda şagirdlər sınaq şüşəsinin ağzına yanar çöp tutaraq "pax" səsinin əmələ gəlməsi ilə yanar çöpün sönməsi nəticəsində hidrogen qazının alınmasını müşahidə etdilər. İkinci bir təcrübədə isə sınaq şüşəsinə içərisinə fenolftalein məhlulu qarışdırılmış su töküldü və süzgəc kağızı ilə təmizlənmiş buğda dənəsi ölçüsündə natrium metalı daxil edirlər. Metal suyun üzərində hidrogen qazının ayrılması hesabına sürətlə hərəkət etməyə başlayır və yenə də hidrogen qazının ayrılmasını yanar çöplə yoxlayırlar. Həmdə hidrogen qazı ayrılarkən içərisində fenolftalein məhlulu olan suyun da qələvinin təsirindən moruğu rəngə boyandığını müşahdə etdik. Bu zaman aparılan təcrübələrdən və təcrübə əsasında qeyd edilən reaksiya tənliklərindən qrup iştirakçılarına aydın oldu ki, metal atomları götürülən mürəkkəb maddələrin tərkibindəki hidrogeni əvəz edirlər, beləliklə də bu tip reaksiyaların **əvəzetmə reaksiyaları** adlandırıldığını müstəqil şəkildə tədqiq etmiş olduq. Deməli, bəsit maddə atomlarının mürəkkəb maddə atomlarından birini əvəz etməsi ilə gedən reaksiyalara əvəzetmə reaksiyaları deyilir. Müvafiq reakiya tənlikləri lövhədə qeyd edilir:

$Zn + 2HCl \rightarrow ZnCl_2 + H_2$

$2\,Na + 2H_2O \rightarrow 2NaOH + H_2$

**4. Dördüncü qrupun lideri** məlumat verir ki, qrup işdirakçıları iki təcrübə yerinə yetirdi. Həm natrium-xlorid məhlulu ilə gümüş-nitrat məhlulunun qarşılıqlı təsirindən ağ rəngli gümüş-xlorid çöküntüsünün alındığını, həmdə dəmir(III) xlorid məhlulu ilə natrium-hidroksid məhlulunun qarşılıqlı təsirindən qonur rəngli dəmir(III)hidroksid məhlulunun alınmasını müşahidə etdilər. Qrup iştirakçıları aparılan təcrübələrin gedişində belə nəticəyə gəldilər ki, iki mürəkkəb maddə arasında tərkib hissələrinin dəyişməsi ilə gedən reakiyalara mübadilə (dəyişmə) reaksiyaları deyilir. Bu zaman müəllimdə əlavə olaraq qeyd edir ki, mübadilə reaksiyaları məhlulda o zaman axıradək gedir ki, çöküntü, qaz, su və az dissosiasiya edən maddələr alınsın (xüsusən də üzvi maddələr). Müvafiq reaksiya tənlikləri qrup lideri tərəfindən lövhədə qeyd edilir:

Bu zaman şagirdlər aşağıdakı reaksiya tənliklərini qeyd edirlər:

$NaCl_{(b)} + H_2SO_{4(qatı)} \rightarrow NaHSO_4 + HCl$

$FeCl_3 + 3NaOH \rightarrow Fe(OH)_3\downarrow + 3NaCl$

$NaCl + AgNO_3 \rightarrow AgCl\downarrow + NaNO_3$

**Mərhələ V**

**Nəticə və ümumiləşdirmə**.

Təqdimatlardan və aparılan təcrübələrdən şagirdlərə aydın olur ki, kimyəvi reaksiyalar müxtəlif əlamətlərinə görə təsnif olunur:

**I.Reaksiyaya daxil olan və alınan maddələrin sayına görə kimyəvi reaksiyaların təsnifatı.**

**a) Birləşmə reaksiyaları**

$CaCO_3 + CO_2 + H_2O \rightarrow Ca(HCO_3)_2$;  $2Fe(OH)_2 + H_2O_2 \rightarrow 2Fe(OH)_3$

**b) Parçalanma reaksiyaları**

$2KNO_3 \xrightarrow{t} 2KNO_2 + O_2$;  $2KClO_3 \xrightarrow{MnO_2} 2KCl + 3O_2$

**c) Mübadilə (dəyişmə) reaksiyaları**

$Na_2CO_3 + CaCl_2 \rightarrow CaCO_3 + 2NaCl$

$CuO + H_2SO_4 \rightarrow CuSO_4 + H_2O$

Qeyd edilir ki, mübadilə reaksiyalarının xüsusi halı neytrallaşma reaksiyalarıdır.

**Neytrallaşma reaksiyaları** – turşu və əsas arasında normal duz alınması ilə gedən reaksiyalara deyilir. Məsələn:

$Cu(OH)_2 + H_2SO_4 \rightarrow CuSO_4 + 2H_2O$

$Al(OH)_3 + 3HCl \rightarrow AlCl_3 + 3H_2O$

**d) Əvəzetmə reaksiyaları**

$2NaCl + F_2 \rightarrow 2NaF + Cl_2$

$Fe + CuSO_4 \rightarrow FeSO_4 + Cu$

**II. Ayrılan və ya udulan istiliyə görə reaksiyalar iki qrupa bölünür:**

1. Ekzotermik reaksiyalar – istiliyin ayrılması ilə gedir. (+Q)
2. Endotermik reaksiyalar – istiliyin udulması ilə gedir. (-Q)

Kimyəvi reaksiyalar zamanı ayrılan və ya udulan istilik miqdarına reaksiyanın istilik effekti deyilir.

Hər bir maddə enerji saxlama qabiliyyətinə malikdir və bu enerji entalpiya ilə xarakterizə olunur.

| Ekzotermik reaksiyalar | Endotermik reaksiyalar |
|---|---|
| $2H_2 + O_2 \rightarrow 2H_2O + Q$  $\Delta H<0$ | $CaCO_3 \rightarrow CaO + CO_2 - Q$  $\Delta H>0$ |
| $2NO + O_2 \rightarrow 2NO_2 + Q$  $\Delta H<0$ | $2HgO = 2Hg + O_2 - Q$  $\Delta H > 0$ |
| $2NO \rightarrow N_2 + O_2 + Q \Delta H <0$ | $N_2 + O_2 = 2NO - Q$  $\Delta H > 0$ |

**III. İstiqamətinə görə kimyəvi reaksiyalar iki qrupa bölünür:**

a) Dönən reaksiyalar – hər iki istiqamətdə gedən reaksiyalara deyilir. Bu

tip reaksiyalarda heç bir başlanğıc maddə reaksiya zamanı tam sərf olunmur. Homogen reaksiyaların əksəriyyəti dönən reaksiyalardır. Burada artıq şagirdə homogen reaksiya haqqında məlumat verilir:

Homogen reaksiya dedikdə, reaksiyaya daxil olan və alınan madələrin hamısının eyni aqreqat halda olması nəzərdə tutulur.

Heterogen reaksiya dedikdə isə reaksiyada iştirak edən maddələrin fərqli aqreqat hallarda olması nəzərdə tutulur.

b) Dönməyən reaksiyalar – yalnız bir istiqamətdə gedən reaksiyalara deyilir. Məhlulda çöküntü, qaz və ya suyun alınması ilə gdən reaksiyaları dönməyən reaksiyalara misal göstərmək olar.

Homogen reaksiyalar:

$N_{2(q)} + 3H_{2(q)} \overset{t.kat}{\rightleftarrows} 2NH_{3(q)}$ $2CO_{(q)} + O_{2(q)} \rightarrow 2CO_{2(q)}$

Heterogen reaksiyalar :

$S_{(b)} + O_{2(q)} \rightarrow SO_{2(q)}$ $CaCO_{3(b)} + 2HCl \rightarrow CaCl_2 + CO_2 + H_2O$

**IV. Oksidləşmə dərəcələrinin dəyşməsinə görə reaksiyaların təsnifatı:**

1. Oksidləşmə dərəcəsinin dəyişməsi ilə gedən reaksiyalar – müəllim bu zaman reaksiyanın tipləri mövzusuna fənndaxili inteqrasiya yaradaraq qeyd etməlidir ki, bu tip reaksiyalara – əvəzetmə, yanma reaksiyaları, elektroliz, metalların korroziyası reaksiyaları aiddir. Lakin Birləşmə,parçalanma, reaksiyaları oksidləşmə reduksiya raksiyaları ola da bilər olmaya da bilər.

2. Oksidləşmə dərəcəsinin dəyişməməsi ilə gedən reaksiyalar - bu tip reaksiyalara mübadilə( dəyişmə), neytralaşma reaksiyaları aiddir.

**VI Mərhələ**

**Yaradıcı tətbiqetmə.**

Dərsin bu mərhələsində mövzunun şagirdlər tərəfindən nə dərəcə dərk olunduğunu müəyyənləşdirmək üçün kimyəvi reaksiyaların təsnifatına aid videoroliklər izlənildi, eləcə də onların mövzuyla bağlı lazımi sxem və cədvəllər üzrə izahatları dinlənildi.

**VII Mərhələ**

**Qiymətləndirmə**

Müəllim əvvəlcədən meyar cədvəlini lövhədən asaraq aşağıdakı kimi qiymətləndirir:

| **Qrup** | **MEYARLAR** | | | | | |
|---|---|---|---|---|---|---|
| | Tapşırıq tam və uyğun yerinə yetirilmişdir | Bir-birini dinləmə | Əməkdaşlıq | Əlavələr (sual-cavablar) | Tərtibat | Vaxtında yerinə yetirilmişdir |
| **I** | + | + | + | + | + | - |
| **II** | + | + | + | + | - | - |
| **III** | + | + | + | + | + | + |
| **IV** | + | + | - | + | - | - |

**VIII Mərhələ**

**Refleksiya**

Bu mərhələdə müəllim, "Biz kimyəvi reaksiyaların təsifatına aid nələri öyrəndik ?" sualı ilə refleksiyanı həyata keçirir.

**Ev tapşırığı:** Şagirdlərə kmyəvi reaksiyalrın müxtəlif əlamətlərinə görə təsnifatına aid kiçik bir təqdimat hazırlamaları tapşırığı verilir.

Şagirdlərin mövzuyla bağlı bilik və bacarıqlarını yoxlamaq üçün aşağıdakı test tapşırıqlarından istifadə edilə bilər:

"Kimyəvi reaksiyaların təsnifatı"

**1.** $2H_2 + O_2 \rightarrow 2H_2O_{(maye)} + 572NC$

Reakziyanın istilik effekti və entalpiyası üçün hansı qiymətlər doğrudur?

1. $Q = +572kC$ 2. $Q = -572kC$

3. $\Delta H = +572kC$ 4. $\Delta H = -572kC$

A) Yalnız 2; B) 2,3; C) 1,3; D) 2,4; E) 1,4

**2.** $Mg + CuSO_{4(məhlul)} \rightarrow$

Reaksiyanın tipini göstərin.

A) Parçalanma; B) Dəyişmə; C) Əvəzetmə; D) Birləşmə; E) Neytrallaşma

**3.** $2H_2 + O_2 \rightleftarrows 2H_2O$

Hansı halda düzünə ($\Delta H_1$) və əksinə gedən reaksiyaların entalpeyalarının ($\Delta H_2$) işarələri doğru göstərilmişdir.

A) $\Delta H_1 < 0, \quad \Delta H_2 = 0$;

B) $\Delta H_1 > 0, \quad \Delta H_2 < 0$;

C) $\Delta H_1 < 0, \quad \Delta H_2 < 0$;

D) $\Delta H_1 > 0, \quad \Delta H_2 > 0$;

E) $\Delta H_1 < 0, \quad \Delta H_2 > 0$

**4.** Homogen reaksiyanı göstərin:

A) $3Fe + 2O_2 \rightarrow Fe_3O_4$;

B) $CuO + CO_2 \rightarrow CaCO_3$;

C) $C + O_2 \rightarrow CO_2$;

D) $2CO + O_2 \rightarrow 2CO_2$;

E) $ZnO + H_2 \rightarrow Zn + H_2O$

**5.** Suyun əmələgəlmə istiliyi 286 kC/mol olarsa, hidrogenin yanma istiliyini hesablayın. (kC/mol ilə)

A) 572; B) 143; C) 286; D)362; E) 412

**6.**Hetrogen reaksiyası göstərin:
A) $CH_4 + CO_2 \to 2CO + 2H_2$;
B) $H_2 + Cl_2 \to 2HCl$;
C) $2NO + O_2 \to 2NO_2$;
D) $C + O_2 \to CO_2$;
E) $2CO + O_2 \to 2CO_2$;
**7.** Hansı reaksiyada istilik effekti yanma istiliyinə bərabərdir:
A) $2Ca + O_2 \to 2CO + 1280\,kC$;
B) $C_3H_8 + 5O_2 \to 3CO_2 + 4H_2O + 1200\,kC$;
C) $4Al + 3O_2 \to 3Al_2O_3 + 3200\,kC$;
D) $2Na + O_2 \to Na_2O_2 + 500\,kC$;
E) $C_2H_2 + 5O_2 \to 4CO_2 + 2H_2O + 2600\,kC$;
**8.** $Ca + 2H_2O \to$
$Zn + H_2SO_{4(duru)} \to$
Reaksiyaları üçün nə ümumidir?
1. Birləşmə reaksiyalarıdır.
2. Əvəzetmə reaksiyalarıdır.
3. Laboratoriyada hidrogeni almaq üçün istifadə olunur.

A) yalnız 2; B) yalnız 1; C) 1, 3; D)yalnız 3; E) 2, 3

Beləliklə də, müasir kimya dərslərində yeni təlim texnologiyalarından lazımi səviyyədə istifadə edilməsi - şagirdlərin intellektual qabiliyyətlərinin, onların bir şəxsiyyət, bir fərd kimi özünəməxsus daxili inkişaf mexanizmlərinin hərəkətə gəlməsinə şərait yaradır. Xüsusilə də, müasir təlim texnologiyalarının əsas strukturu olan şəxsiyyətyönümlü və inkişafetdirici təlim texnologiyaları şagirdlərdən nəyisə birlikdə öyrənmək və öyrənilən mövzu ilə bağlı tədqiqatçılıq qabiliyyətlərini formalaşdırmaq bacarıqlarını tələb edir.

Ümumiyyətlə qeyd etməliyik ki, ümumtəhsil məktəblərində VIII sinif kimya kursunda kimyəvi reaksiyaların təsnifatına aid mövzuların tədrisi prosesində aşağıdakı ümumi didaktik quruluşlar əsas götürülməlidir:

1. Dərsin mövzusu ilə əlaqəli şagirdlərin biliklərinin və fəaliyyət üsullarının aktuallaşdırılması
2. Şagirdlərdə mövzu ilə bağlı yeni anlayış və fəaliyyət üsullarının formalaşdırılması
3. Şagirdlərin əldə etdikləri yeni biliklərin tətbiqi üzrə çalışmalar, yeni bacarıq və vərdişlərin formalaşdırılması.

## İstifadə edilmiş ədəbiyyat:


1. Abbasov V.M., Abbasov M.M., Əliyev R. və b. Kimya. VIII-IX siniflər üçün dərslik, Bakı:Təhsil, 2013, 440 s.
2. Abbasov M.M, Abbasov V.M. və b. Kimya. VII siniflər üçün dərslik, Bakı-2018, 95 s.
3. Əliyeva R., Abbasov V.M., Abbasov M.M. Kimya. VIII siniflər üçün dərslik, Bakı-2015, 193 s.
4. M.S.Fərəcov, S.Axundova, G.Qayayeva, V.Əsgərov. Kimyəvi reaksiyaların təsnifatına, sürətinə və kimyəvi tarazlığa aid mövzuların tədrisində inteqrativ və inteqrativ təlimin tətbiqi təcrübəsindən. "Kimya məktəbdə" jurnalı,№ 1-2 (37-38), 2012
5. N.Novruzova, A.Qəmbərov. Kimyanın tədrisində şagirdlərin fəaliyyətinin inkişaf etdirilməsi " Kimya məktəbdə" jurnalı № 1(45), 2014.
6. Məmmədova A.Z. Ümumi təhsil kurikulumunun əsasları. Bakı, 2016, 392 s., [215-218]

*М.С.Нуриева*

**Возможности использования современных технологий обучения в процессе преподавания темы о химических реакциях в курсе химии VIII класса**

**РЕЗЮМЕ**

В статье, используя современные нтехнологии обучения, дана классификация химических реакций в 8-м классе химии. В соответствии с требованиями современного изучения предмета, как теоретические, так и практические направления для всестороннего развития студентов учитываются.

*M.S.Nuriyeva*

**Opportunities of use from the modern training technologies in the process of teaching of the topic concerning the chemical reactions in VIII class chemistry course**

**SUMMARY**

Article is devoted to the teaching the topics concerning the “Classification of chemical reactions” by active/interactive method in VIII class chemistry course by using from modern training technologies. In accordance with organizational requirements of modern subject, providing of comprehensive appropriation of the topic by student both in theoretical and practice spheres.

**Açar sözlər:** kimyəvi kinetika, istilik effekti, homogen reaksiyalar, oksidləşmə dərəcəsi, əmələgəlmə istiliyi.

**Ключевые слова:** химическая кинетика, тепловой эффект, гомогенные реакции, скорость окисления, температура пласта.

**Key words:** chemical kinetics, heating effect, homogenous reactions, oxidation grade, formation heating.